

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 10 (22.921)

18 yanvar 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib.

Prezident İlham Əliyev həmin obyektlərin rəmzi açılışını bildirən lenti kəsib.

Görülən işlər barədə dövlətimizin başçısına məlumat verilib.

Bildirilib ki, modern memarlıq üslubunda “Azərişıq” ASC-nin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Ofis binası ən müasir standartlara uyğundur. Yeni inzibati binada milli və beynəlxalq memarlıq ənənələri üzvi şəkildə bir-birini tamamlayır.

Sonra dövlətimizin başçısına yeni yarımstansiya barədə məlumat verilib. Qeyd olunub ki, 1954-cü ildə tikilən və istismar müddəti başa çatan 220 saylı yarımstansiya tamamilə köhnəlmişdi. Prezident İlham Əliyevin sərəncamlarına əsasən Bakı şəhərində həyata keçirilən infrastruktur layihələri, çoxmənzilli binaların tikintisi ilə əlaqədar həmin sosial obyektlərin dayanıqlı elektrik təchizatını təmin etmək üçün bir sıra yarımstansiyaların, o cümlədən 220 saylı yarımstansiyanın yerində qapalı tipli, müasir avadanlıqlarla təchiz edilən yeni yarımstansiya, həmçinin ərazidən səmərəli istifadə etməklə Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Paytaxtın Xətai, Nəsimi, Nərimanov və Səbail rayonlarının böyük hissəsini, o cümlədən bir çox strateji obyektləri elektrik enerjisi ilə təchiz edən yeni yarımstansiya əsaslı şəkildə genişləndirilib.

Dövlətimizin başçısına Bakı Rayon Elektrik Təchizatı və Satışı İdarəsinin yenidən qurulan 110/35/10 kilovoltluq “Yasamal-1”, 35/10-6 kilovoltluq 120 saylı və Qobu qəsəbəsi ərazisində yeni inşa edilən 110/35/10 kilovoltluq “Qobu” yarımstansiyaları, “Azərişıq”ın elektrik təchizatı sxemi, 110 kilovoltluq “Bayramzadə” yarımstansiyası, Külək Elektrik Parkı və digər yenidənqurma layihələri barədə də məlumat verilib.

## Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilmişdir





Yanvarın 17-də Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Dövlət Universitetinin Xarici tələbələrlə iş üzrə dekan müavini, elektron təhsil portalının adminstratoru Hüseyn Qasımov distant təhsil proqramı haqqında məlumat vermişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Dövlət Universitetində distant formada təhsil almaq istəyən xarici tələbələr universitetin ndu.edu.az saytına müraciət edərək “Distant təhsil” bölməsinə daxil olmalıdırlar. Tələbələr burada distant təhsil haqqında məlumatlar və qəbul qaydaları ilə tanış olduqdan sonra tələb olunan sənədləri elektron formada universitetə göndərməlidirlər. Müraciət qəbul olunduqdan sonra tələbənin elektron poçtuna müvafiq məlumat göndərilir, qeydiyyatdan keçən hər bir tələbəyə proqram tərəfindən fərdi identifikasiya nömrəsi verilir və ona şəxsi kabinet ayrılır. Bu da tələbələrə məzun olduqdan sonra da öz istifadəçi adı və şifrəsi ilə sistemə daxil olmasına və təhsil sənədlərini əldə etməsinə imkan verəcəkdir.

Çoxfunksiyalı distant təhsil proqramında dərslər offlayn və onlayn rejimdə tədris olunacaqdır. Tədris planları, ixtisaslar və müəllimlər haqqında məlumatlar sistemə yüklənmiş, müəllimlərin mühazirələrinin elektron variantı və video-dərslər hazırlanmışdır. Distant təhsilə cəlb edilən müəllimlər seçilmiş və onlara portaldan istifadə haqqında təlimlər keçirilmiş, müəllimlərin distant təhsil proqramından istifadə qaydaları ilə bağlı təlimat hazırlanmışdır. Keçirilən dərslərin yaxşı mənimsənilməsi üçün elektron kitabxana portalı proqrama inteqrasiya edilmişdir. Tələbələr əvvəlcədən dərs proqramları, müəllimin verdiyi tapşırıqlar və mühazirələrlə tanış ola, həm offlayn, həm də onlayn rejimdə sual-cavab apara bilərlər. Həmçinin istifadəçilər arasında diskussiyalar təşkil etmək, onlayn sorğu və müzakirələr aparmaq mümkündür. Tələbələr video və yazılı formada təqdim edilən dərsləri öz kompüterinə yükləmək və istənilən vaxt yararlanmaq imkanına da malikdirlər. İmtahanlar da onlayn formada aparılır və nəticələri barədə tələbələrə məlumat verilir. Distant təhsil üzrə məzunlara Azərbaycan və ingilis dillərində təhsili bitirmək haqqında elektron sənəd təqdim olunur.

Tələbələr istənilən ölkədən kompüter, mobil telefon və planşetlər vasitəsilə Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinə qoşula bilərlər. Təqdimat zamanı tələbələr müxtəlif məkanlardan kompüter və mobil telefon vasitəsilə Distant Təhsil Mərkəzinə qoşulmuşlar.

Sonra Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi ilə tanış olmuşdur.

Bildirilmişdir ki, mərkəz Xarici tələbələrlə iş üzrə dekanlığın nəzdində fəaliyyət göstərir. Mərkəzdə auditoriya yaradılmış, 1 noutbuk, 2 kompüter, tribuna və proyektor quraşdırılmışdır. Distant təhsil üzrə tələbə qəbulunun aparılması, dərslərin yazılması, tədrisin idarə olunması ilə bağlı işçi qrupu yaradılmış, işçi qrupun üzvləri Türkiyənin Ərzurum Atatürk Universitetində və Ankara Qazi Universitetində təcrübədə olmuşlar. İlkin mərhələdə xarici dil müəllimliyinin ingilis, fransız, alman və rus dilləri olmaqla 4 ixtisas üzrə distant təhsilin aparılması nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi muxtar respublikanın həyatında əlamətdar hadisədir. Distant Təhsil Mərkəzi Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişaf yolunun nəticəsidir. 13 il bundan əvvəl keçirilən “Elektron Naxçıvan-1” konfransında Naxçıvan Dövlət Universitetinin kompüterləşməsi proqramının əsası qoyulmuş və bu gün Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi ilə başa çatmışdır. Bu gündən etibarən isə universitetdə distant təhsilin tətbiqinə başlanılır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, distant təhsil Naxçıvan Dövlət Universiteti ilə yanaşı, muxtar respublikanın digər ali və orta ixtisas məktəblərində də tətbiq edilməlidir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Dövlət Universiteti uğurlu inkişaf yolu keçib. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə layiq görülmüşdür. Bu gün isə ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində distant təhsilin əsası qoyulur. Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi vacib məsələdir. Çünki bu, Naxçıvan Dövlət Universitetinin dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirəcəkdir. Eyni zamanda distant təhsilin tətbiqi müəllimlərin dərs saatının və əməkhaqqının artırılmasına da təsir göstərəcəkdir. Hazırda Naxçıvan Dövlət Universiteti 58 ixtisas üzrə bakalavr təhsili verir. Bu gündən etibarən isə 4 ixtisas üzrə distant təhsil həyata keçiriləcəkdir. Ona görə də mərkəzdə yaradılan şəraitdən düzgün istifadə olunmalı, ixtisasların sayı və müəllimlərin hazırlıq səviyyəsi artırılmalı, tədris olunan ixtisaslar üzrə ədəbiyyatlar hazırlanmalı, Distant Təhsil Mərkəzi beynəlxalq təhsil sistemində tanıdılmalıdır.

Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, onlara uğurlar arzulamışdır.

Ardı 2-ci səhifədə



# Universitetin Tibb fakültəsinin binası yenidən qurulacaqdır

Muxtar respublikada səhiyyənin inkişafı sahəsində həyata keçirilən tədbirlər sırasında ixtisaslı tibbi kadrların hazırlanması xüsusi yer tutur. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi də ixtisaslı həkimlərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərir. Bu il fakültənin yerləşdiyi bina əsaslı şəkildə yenidən qurulacaq.

Yanvarın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binanın yenidənqurma layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, uzun müddət istismar olunan bina müasir tədrisin tələblərinə uyğun qurulacaqdır. 812 yerlik olacaq binada 28 auditoriya, kompüter otağı, elektron siniflər, laboratoriyalar, anatomiya muzeyi, mulyaj otağı, 108 yerlik konfrans zalı, kafedralar və digər iş otaqları yerləşəcəkdir. Yenidənqurma işlərindən sonra bina zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət olacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinə başlanması ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*18 yanvar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yaranması günüdür*

# Muxtar respublikanın daxili işlər orqanları hərtərəfli qayğı əhatəsindədir

*1924-cü il yanvarın 18-də Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumunun qərarı ilə Naxçıvan Daxili İşlər Şöbəsinin nəzdində Naxçıvan Daxili İşlər Komissarlığı yaradılmış və bununla da muxtar respublikada polis orqanlarının formalaşmasının əsası qoyulmuşdur.*

Naxçıvan polisi 1920-1940-cı illərdə xaricdən göndərilən və daxildəki qaçaq-quldur dəstələrinə qarşı fəal mübarizə aparmış, sabitliyin və asayişin qorunmasında mətinlik göstərmişdir. 1941-1945-ci illərdə ön cəbhədə faşistlərə qarşı mərdliklə vuruşan polislərimiz 1988-1993-cü illərdə erməni silahlı birləşmələrinin torpaqlarımıza hücumu zamanı ərazi bütövlüyümüz uğrunda döyüşlərdə fəal iştirak etmişdir.

Azərbaycan Respublikasının daxili işlər orqanlarının, eləcə də Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının hərtərəfli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ümummilli lider Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbər seçilməsindən sonra daxili işlər orqanlarına dövlət qayğısı güclənmiş, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə şərait yaranmışdır. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkədə aparılan böyük quruculuq dövrünün başlanması daxili işlər orqanlarının fəaliyyətinə də öz müsbət təsirini göstərmişdir. İlk növbədə, ölkədə tüğyan edən cinayətkarlığa qarşı ixtisaslı mübarizənin aparılması üçün zəruri olan kadr potensialı, işgüzar ab-hava yaradılmışdır. Bütün bunlar yalnız ulu öndər Heydər Əliyevin qətiyyəti və yüksək idarəçilik bacarığı sayəsində mümkün olmuşdur.

Heydər Əliyev ideyalarına ən çətin məqamlarda belə, sadiq olan Azərbaycan polisi bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ağır, məsuliyyətli, həm də şərəfli vəzifələrin öhdəsindən bacarıqla gəlir, ölkə rəhbərliyinin polisə göstərdiyi daim diqqət, qayğı və etimadı vicdanlı xidmətləri ilə doğruldurlar.

Bu gün Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında xidmət ən müasir tələblər səviyyəsində qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən daxili işlər orqanlarına göstərilən diqqət və qayğı nəticəsində muxtar respublikada cinayətlərin qarşısının alınması və açılması, ictimai asayişin təmini sahəsində həyata keçirilən tədbirlərin keyfiyyəti daha da yaxşılaşdırılaraq kriminogen durum tam nəzarətdə saxlanılmışdır. Sahə xidmətləri, orqan və hissələr yeni informasiya texnologiyaları, xüsusi rabitə və texniki vasitələrlə tam təmin olunmuşdur.



Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazası ən müasir səviyyəyə çatdırılmış, Daxili İşlər Nazirliyinin aparatının inzibati binası da daxil olmaqla, bütün ərazi polis orqanlarının inzibati binaları yenidən qurulmuş, ən müasir xidməti avtomobillər şəxsi heyətin istifadəsinə verilmişdir. Son illər polis sahə inspektorları üçün müasir tələblərə cavab verən 133 polis sahə məntəqəsi tikilib istifadəyə verilmişdir.

Avtomobillərin texniki baxışdan keçirilməsi işini asanlaşdırmaq məqsədilə Şərur, Culfa və Ordubad rayonları ərazisində Dövlət Yol Polisi İdarəsinin yeni texniki müayinə mərkəzləri tikilərək istifadəyə verilmişdir. Bu müayinə mərkəzlərində il ərzində, təxminən, 50 min avtomobilin texniki baxışdan keçirilməsi mümkündür. Yeni informasiya texnologiyalarının tətbiqi sahəsində də bir sıra əsaslı tədbirlər həyata keçirilmişdir. Naxçıvan şəhərinin inzibati ərazisini əhatə edən "Təhlükəsiz şəhər" sistemi çərçivəsində şəhərin bir çox koordinatlarında təhlükəsizlik kameraları, Dövlət Yol Polisi İdarəsində və Pasport Qeydiyyat və Miqrasiya şöbəsində cərimə və rüsumların yerində ödənilməsi üçün POS-terminallar, yolpatrul xidməti avtomaşınlarında məlumat bazasına qoşulmaq imkanı verən bortkompüterlər və sürət həddinə nəzarət edilməsini təmin edə bilən radarlar, o cümlədən muxtar respublikanın magistral yollarında da sürət həddinə nəzarət edilməsi məqsədilə stasionar radar vasitələri quraşdırılmışdır.

Daxili İşlər Nazirliyinin internet saytında vətəndaşların müraciətlərinin elektron formada qəbulu üçün 2011-ci ildən etibarən "Elektron poçt" guşəsi yaradılmış, ərazi və nəqliyyatda polis orqanlarının hamısının elektron sənəd dövriyyəsinə qoşulması başa çatdırılmışdır. 2015-ci ilin mart ayından etibarən vətəndaşlara səyyar xidmət göstərilməsinə başlanılmış və bu müddət ərzində 17 min 846 nəfərdən artıq vətəndaşımız bu xidmətdən yararlanmışdır. Səyyar xidmətin həyata keçirilməsi üçün lazım olan bütün texniki və xüsusi vasitələr, informasiya avadanlıqları, həmçinin nəqliyyat vasitələri xidmətin istifadəsinə verilmişdir.

Şəxsi heyətin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilmiş və bu gün də davam etdirilməkdədir. Bu baxımdan Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında xidmət edən zabit-gizirlərin ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüş, hər biri 5 mərtəbəli 60 və 45 mənzildən ibarət 2 yaşayış binası tikilib istifadəyə verilmiş, mövcud 2 mərtəbəli 8 mənzildən ibarət yaşayış binasına 1 mərtəbə də əlavə olunmaqla əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Həyata keçirilən bu kimi tədbirlər muxtar respublikada cinayətkarlığın dinamikasına təsir göstərmiş, muxtar respublika dünyanın ən təhlükəsiz regionlarından birinə çevrilmişdir. Naxçıvanı bir çox ölkələrdə etiraf edilən sabit bir region imici isə onu həm də beynəlxalq tədbirlərin davamlı surətdə keçirildiyi məkana çevirmişdir.

Muxtar respublikada asayişin mühafizəsi sahəsində baş verən müsbət dəyişiklikləri, o dövrün cinayətkarlığının statistikası ilə müqayisəsi də tam aydınlığı ilə əks etdirir. Belə ki, neçə illərdir, muxtar respublikada cinayətlərin açılma faizi 100 faizdən aşağı enmir. Həmçinin 22 il bundan əvvəllə müqayisədə muxtar respublikada cinayətlərin sayının 40 dəfəyə yaxın aşağı enməsinin şahidi oluruq. Bu gün Naxçıvan polisi öz göstəricilərinə görə Azərbaycan Respublikası daxili işlər orqanları arasında ən qabaqcıl yerdə dayanmaqla cinayətkarlığa qarşı mübarizədə ən yaxşı nəticələri əldə etmişdir.

Naxçıvan haqqında danışılanda fəxr edə biləcəyimiz çox uğurlar vardır. Bu uğurların qazanılması, əlbəttə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısının nəticəsində mümkün olmuşdur. Ali Məclisin Sədri tərəfindən cinayətkarlığa qarşı mübarizə sahəsində insan amilinə üstünlük verilməsi, profilaktik və hüquqi maarifləndirmə tədbirlərinin daha effektli və əsaslı həyata keçirilməsi polis orqanlarının qarşısında bir proqram sənəd kimi qoyulmuşdu. Daxili işlər orqanlarına göstərilən yüksək etimad uğurların əldə olunmasına birbaşa stimul yaradaraq əsaslı dönüşə səbəb olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Daxili işlər orqanlarının əməkdaşları onlara göstərilən etimadı bundan sonra da doğrultmaq üçün bütün qüvvə və vasitələri səfərbər etməklə dövlətçiliyimizin keşiyində mətanətlə dayanacaq, muxtar respublikada asayişi və ictimai təhlükəsizliyi təmin edəcək, xidməti andına sadiq qalaraq polis adını şərəflə qoruyacaqdır.***

***Naxçıvan Muxtar Respublikası***
***Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

*18 yanvar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin yaranması günüdür*

# Ədliyyə orqanlarının fəaliyyəti səmərəli təşkil olunub




*Naxçıvan Muxtar Respublikasında ilk ədliyyə orqanı 1924-cü il yanvarın 18-də yaradılmışdır. Fəaliyyət göstərdiyi müddətdə nazirliyin səlahiyyətləri bir neçə dəfə məhdudlaşdırılaraq başqa orqanlara verilmiş, sabit fəaliyyət istiqaməti olmamışdır. 1956-cı ildə onun səlahiyyətləri Ali Məhkəmə, prokurorluq və digər orqanlara verilmişdir. Ulu öndər Heydər Əliyev ölkəmizdə ilk dəfə rəhbərliyə gəlişindən sonra respublikanın qanunvericilik sisteminə, hüquq-mühafizə orqanlarının statusuna, ədliyyə sisteminə diqqət göstərmiş, nazirlik yenidən təsis edilərək onun vahid strukturu formalaşdırılmış, ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaradılmışdır. 1971-ci il mayın 5-də Naxçıvan MSSR Ədliyyə Nazirliyi yenidən təsis edilmişdir. 1990-cı il noyabrın 17-dən etibarən isə qurum Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi adlanmışdır.*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, hüquq sahəsində də islahatların aparılmasına başlanmışdır. Ümummilli liderin bilavasitə sədrliyi ilə Hüquqi İslahat Komissiyası yaradıldı və qısa müddət ərzində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən quruldu, hüquq sisteminin fəaliyyətini tənzimləyən bütün əsas qanunlar və məcəllələr beynəlxalq hüquq normalarının tələbləri nəzərə alınmaqla yenidən qəbul edildi. Ulu öndərin "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə" 2002-ci il 24 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəmə qərarlarının və cəzaların icrası, normativ aktların qeydiyyatı, müvafiq məhkəmələrin maliyyə, digər maddi-texniki təminatlarının həyata keçirilməsi və digər sahələr üzrə əlavə səlahiyyətlər verildi. Bundan sonra azsaylı ştat vahidi ilə fəaliyyət göstərən nazirliyin aparatının yeni strukturu təsdiq edildi, yeni şöbə və bölmələr yaradıldı, gənc hüquqşünaslar ədliyyə orqanlarına işə qəbul olundular.

Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuş, mükəmməl normativ-hüquqi baza yaradılmışdır. Ötən müddət ərzində ölkəmizdə ədliyyə işi beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılmış, gələcək perspektivlərə hesablanmış mühüm dövlət proqramları qəbul edilmişdir. Ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı" haqqında və "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi, "Ədliyyə orqanlarında qulluq keçmə" haqqında Qanunun qəbul olunması bu sahənin inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur.

Muxtar respublikada da ədliyyə sahəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilmiş, ədliyyə orqanlarının fəaliyyətinin yeni dövrün tələbləri səviyyəsində qurulması təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 25 aprel tarixli Fərmanı ilə

*Ardı 3-cü səhifədə*

"Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi haqqında" Əsasnamə təsdiq edilmiş, nazirliyin muxtar respublikada ədliyyə sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq-mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanı kimi geniş fəaliyyət istiqaməti müəyyənləşdirilmişdir. Əsasnaməyə əsasən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını və notariat orqanlarının fəaliyyətini tənzimləyir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və reyestrini aparır, müvafiq məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə qərarlarının icrasını, penitensiar müəssisələrin fəaliyyətini təşkil edir. Həmçinin bələdiyyələrin işinin təşkilinə kömək və metodoloji yardım göstərilməsi, qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrə ibtidai istintaq aparılması, məhkəmə ekspertizalarının keçirilməsi, hüquqi maarifləndirmə işi və digər məsələlər də Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinə aiddir.

Muxtar respublika rəhbərinin ədliyyə sahəsinə diqqət və qayğısı nəticəsində yeni struktur qurumları yaradıldı. Ədliyyə fəaliyyətinin əsas istiqamətlərindən biri olan ekspertiza işinin təşkili diqqətdə saxlanıldı. Maddi sübutların Bakı şəhərinə göndərilmə çətinliyini aradan qaldırmaq, operativliyi təmin etmək məqsədilə 2005-ci ildə Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialı, 2015-ci ildə isə həmin filialın əsasında Məhkəmə Ekspertizası Mərkəzi yaradıldı. Mərkəzin yaradılması ekspertiza işlərinin yüksək səviyyədə aparılmasına, hüquq-mühafizə orqanları tərəfindən təyin edilmiş ekspertiza işlərinin vaxtında və hərtərəfli araşdırılmasına böyük köməklik göstərmişdir. Hazırda mərkəzdə 11 növ, 17 ixtisas üzrə ekspertiza işi aparmaq mümkündür.

2007-ci ildə nazirliyin tarixində ilk dəfə olaraq Penitensiar Xidmət yaradıldı. Xidmətin yaradılması muxtar respublikada cəza-icra siyasətinin həyata keçirilməsinə öz müsbət təsirini göstərdi. İnsan haqlarının etibarlı qorunmasına xüsusi ehtiyac duyulan sahələrdən biri olan bu sahədə müasir infrastrukturun yaradılması üzrə ardıcıl tədbirlər həyata keçirilməyə başlandı. Məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi, İstintaq Təcridxanası və 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsi tikilib istifadəyə verildi. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda istifadəyə verilmişdir. Müasir tələblərə cavab verən bu müəssisənin yaradılması insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbirlər kimi xüsusi əhəmiyyətə malikdir.

Penitensiar Xidmətin hüquqi bazasının möhkəmləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 9 iyun tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti haqqında Əsasnamə" təsdiq edildi. Əsasnamənin təsdiqi ilə penitensiar xidmətin fəaliyyət istiqamətləri, hüquq və vəzifələri tam şəkildə təsbit edilmişdir.

Muxtar respublikada məhkumluq həyatı yaşayan insanların müxtəlif peşələr üzrə kurslara cəlbi və azadlığa buraxıldıqdan sonra öz peşələrinə uyğun işlə təmin olunması da diqqət mərkəzində saxlanılmışdır. 2016-cı ildə Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində çıxış edərək demişdir: ***"Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi ölkəmizdə insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Müstəqil Azərbaycanın hər bir vətəndaşı ölkəmiz üçün çox qiymətlidir. Çünki ölkənin inkişafını onun vətəndaşları təmin edirlər. İxtisası və peşəsi olan vətəndaşlar isə ölkəsi və xalqı üçün daha faydalı olur"***.

Hüquqi dövlətin qurulması möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Son illər ərzində ədliyyə sisteminin müasirləşdirilməsi və müstəqil məhkəmə hakimiyyətinin daha da gücləndirilməsi üzrə çox mühüm addımlar atılmışdır. Bütün bu inkişafın fonunda ədliyyə orqanları işçilərinin sosial təminatının yaxşılaşdırılması, onların dövlət təltiflərinə, fəxri adlara və yüksək ali rütbələrə layiq görülməsi ədliyyə sisteminə göstərilən diqqətin bariz ifadəsidir. Qürurla deyə bilərik ki, muxtar respublikada gedən sürətli sosial-iqtisadi inkişaf, əhalinin rahat və təhlükəsiz yaşamasına, onların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasına xidmət edir. Bu da hər bir ədliyyə işçisinə stimul verir ki, üzərinə qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlsin, öz fəaliyyəti ilə ölkəmizin sürətli inkişafına layiqli töhfəsini versin.

Ədliyyə işçiləri uğurla həyata keçirilən dövlətçilik amallarına daim sadiq qalaraq demokratik, hüquqi dövlət quruculuğuna öz töhfələrini verməyə çalışırlar. Bizi qarşıda mühüm vəzifələr gözləyir. Öz fəaliyyətimizlə qanunçuluğun keşiyində layiqincə dayanmalı, muxtar respublikamızı tərəqqiyə qovuşdurmaqla ölkəmizin inkişafına öz töhfəmizi verməliyik.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*18 yanvar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaranması günüdür*

# Naxçıvanda əhalinin sağlamlığı etibarlı təmin olunub

***1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmış və bununla da, muxtar respublikada səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulmuşdur.***


Naxçıvan Muxtar Respublika Xəstəxanası

Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra səhiyyənin inkişafının təmin edilməsi, müalicə-sağlamlıq işinin yaxşılaşdırılması məqsədilə mühüm tarixi qərarlar qəbul etmişdir. Ümummilli lider 1993-cü ildə ölkəmizdə yenidən hakimiyyətə qayıtdıqdan sonra da digər sahələr kimi, səhiyyənin də yeni inkişaf mərhələsinin əsası qoyulmuş, Azərbaycanda insanların sağlamlığının qorunması, əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində layiqincə davam etdirir. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin və keyfiyyət amilinin artmasına imkan vermişdir.





Son illər ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində müşahidə olunan uğurlu inkişaf muxtar respublikada digər sahələr kimi səhiyyənin davamlı inkişafını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır"*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində son illər Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, Duzdağ Fizioterapiya, Kardioloji, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Mərkəzi Uşaq Xəstəxanası, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək Rayon Mərkəzi xəstəxanaları, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ümumilikdə, son illər 266 səhiyyə obyektinin tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi muxtar respublikada səhiyyə sahəsində görülən işlərin əsas göstəricisidir.


Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

Ölkəmizdə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikamızda ləğv edilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən çox mühüm islahatlar öz faydasını verməkdədir. Əhalinin hər bir təbəqəsi keyfiyyətli tibbi xidmətlə əhatə olunub. Səhiyyə sistemində tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi, lazımi şəraitin yaradılması hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır.

Bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə ölkə Prezidentinin müvafiq tapşırığı hər il muxtar respublikamızda da uğurla icra olunur, tibbi müayinə zamanı aşkar olunan ilkin, eləcə də qeydiyyatda olan xroniki xəstələr əlavə müayinələrə cəlb edilirlər.

Bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunmuşdur. Bu da əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır.Türkiyə Respublikasından və Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq müxtəlif cərrahi əməliyyatlar aparmaları, humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını almışdır. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatların təşkili onlara həm maddi, həm də mənəvi dəstək olmuşdur. Hazırda aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stend qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir.

Muxtar respublikada əhali sağlamlığının və rifahının yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması bir yaşa qədər ölən uşaqların sayının azalmasına səbəb olmuşdur. Səhiyyənin inkişafı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatı və digər bu kimi mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına da ciddi təkan vermişdir.


Babək Rayon Mərkəzi Xəstəxanası

Hazırda səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsini genişləndirmək, əhaliyə yerindəcə keyfiyyətli tibbi xidmət göstərmək prioritet istiqamətlərdən biridir. Bu məqsədlə çoxprofilli həkim briqadaları kəndlərdə olur, əhaliyə lazımi tibbi xidmət göstərirlər. Bu da xəstəliklərin qarşısının alınması, onların erkən aşkar edilməsi və vaxtında tam müalicə olunması baxımından son dərəcə əhəmiyyətlidir. Bir məsələni də qeyd edək ki, bu gün Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlifprofilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Bütövlükdə həyata keçirilən profilaktik və əks-epidemik tədbirlər nəticəsində muxtar respublikada yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət tam sabitdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında əhaliyə 228 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Təkcə ötən il bu müəssisələrə 34 həkim və 94 orta tibb işçisi təyinat almışdır. Tibb müəssisələrində 713 həkim, 2 min 97 orta tibb işçisi çalışır. Naxçıvanın səhiyyə müəssisələrində çalışan ağxalatlı peşə sahiblərinin əməyi dövlətimiz tərəfindən həmişə layiqincə qiymətləndirilir.

Muxtar respublikanın səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanmış, qısa müddətdə nümunəvi tibbi informasiya sistemi qurulmuşdur. Cavan ailələrdə səhiyyə maarifi işini, hamilə qadınların patronaj xidməti, yeni doğulmuşların vaxtında qeydiyyata alınması, peyvənd işinin təşkili, uşaqların Elektron sağlamlıq kartları ilə təminatı və ondan istifadə qaydasının öyrədilməsi məqsədilə "Ailə sağlamlıq məktəbləri" yaradılmış, məşğələlərin davamlı aparılmasına nail olunmuşdur.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollektivi bundan sonra da əhalinin sağlamlığı keşiyində dayanacaq, səhiyyənin inkişafına öz layiqli töhfələrini verəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Həyatı və yaradıcılığı gələcək nəsillər üçün örnək olan şəxsiyyətlər arasında Azərbaycan rəssamlığına əvəzsiz xidmətlər göstərmiş Bəhruz Kəngərlinin yaradıcılığı çox zəngin və mövzu etibarilə əhatəlidir. Bəhruz Kəngərlinin sənət irsi Vətən gözəllikləri və taleyinin rəngli təsviri deməkdir. Çünki rəng rəssamın göstərmək istədiyi məqsədlərin qabarıq təqdimidir. Bəhruz Kəngərlinin yaratdığı "İlanlı dağ ay işığında", "Günəş batarkən", "Bahar mənzərələri", "Qaçqınlar" silsiləsinə daxil olan yurdsuz insanların portretləri, "Elçilik", "Toy" kimi məişət kompozisiyaları, Naxçıvan teatrında tamaşaya qoyulmuş əsərlərə verdiyi bədii tərtibat və geyim eskizləri Azərbaycan boyakarlıq rəssamlığının dəyərli nümunələrindən hesab olunur.***

# Bəhruz Kəngərli sənətindən görünənlər



Onun dərin həvəslə yaratdığı təbiət mövzusundakı əsərlərində hər cəhətdən zəngin və gözəl ana yurdumuzun füsunkar təbiəti, insanı valeh edən ecazkar gözəllikləri əks olunub. Bu təkrarsız ustad sənətkarın rəsm əsərləri bir tamaşaçı kimi məni də həmişə özünə valeh edib, görkəmli rəsm ustadının zəngin yaradıcılığından doğan təəssüratlarımı bölüşmək istəyimi zərurətə çevirib.

Dərin istedad sahibi, görkəmli rəssam, nadir boyakar Bəhruz Kəngərlinin "Şəlalə", "Günəş batarkən", "Dağlıq mənzərə", "Ağrı dağı" adlı əsərlərində sanki təbiət sənətkarın dərin müşahidələrinin onda yaratdığı təəssüratlar, insan ruhuna bütün valehediciliyi ilə hopan gözəlliklərlə təsvir edilib. Sanki bu qüdrətli qələm sahibi təbiətin poeziyasını fırçanın qüdrəti ilə göz yaddaşımıza köçürüb. Elə bil bizim qəlbimizi riqqətə gətirən gözəlliklər onun nadir fırçasından ərsəyə gələn rəsmlərdə əks edilib. Rəssamın "Dağ mənzərəsi" rəsmində Naxçıvan dağlarının əzəmət və qüdrəti, insana genişqəlblilik, dözümlülük və mübarizlik gətirən xarakterik təəssürat cizgiləri əksini tapıb. Onun yağlı boya ilə çəkilmiş "Mənzərə" şəklində isə hiss olunan isti və quruluğun təsirlərinə baxmayaraq, yaşıllığını qorumağa çalışan, yaşamaq üçün mübarizə aparan və boy atmağa, öz gözəlliyini, mövcudluğunu saxlamağa can atan ağaclar təsvir edilib. "Evlə mənzərə" əsərində obyektlərin planlı şəkildə düzgün təsviri daha aydın sezilir və əsərə cəlbedicilik bəxş edir. Əsərdə dağların əzəməti və üfüqin genişliyi qarşısında evlərin sadə görüntüsü diqqəti cəlb edir. Qarşıdakı gölməçədə isə suların parlaqlığı, xüsusilə bu parlaqlıqda ətraf obyektlərin əks olunması böyük ustalıqla təsvir olunub. Bu sadə evlərin qarşısındakı başqa ağaclara nisbətən tənha bir ağacın da dik duraraq göylərə can atan təsviri rəsmə əlavə məna və məzmun qatır. Sanki bu tənha ağacın təsviri insanı bütün çətinliklərə rəğmən yaşamağa, öz varlığını sürdürməyə, problemlər qarşısında məğrur dayanmağa sövq edir.

Öz Vətənini bütün varlığı ilə sevən və ona bağlı bir sənətkar olan Bəhruz Kəngərlinin əsərlərində Vətən təbiəti, tarixi abidələri özünə əsaslı yer tutub. Bununla bərabər, Vətəninin başına gələn müxtəlif hadisələrdən doğan təəssüratlar da onun əsərlərinin əsas təsvir obyektləri olub. Bəhruz Kəngərlinin böyük yanğı və ustalıqla yaratdığı "Qaçqınlar" silsiləsindən olan əsərlərinə həyəcansız baxmamaq olmur. "Tərk edilmiş ev", "Yurdsuz ailə", "Papaqlı oğlan", "Naxçıvanda xaraba qalmış evlər", "Qaçqın qadın", "Qaçqın oğlan" və sair əsərlər indi bizim sənət incilərimizin ən gözəl örnəkləri olaraq bizlər üçün yaddaş rolunu oynayır. Xüsusilə bu əsərlərdə görkəmli rəssamın doğma Vətəni olan Naxçıvanda xəyanətkar ermənilərin yaratdığı faciəli hadisələr əsaslı yer tutub. Həmin əsərlərdə azərbaycanlıların başına gələn bəlalar, doğma yurdundan didərgin düşmüş insanların taleyi, vəziyyəti, dağıdılmış və tərk edilmiş yurd yerləri və sair öz təsvirini tapıb. Bu baxımdan mövzu aktuallığına və ideya məzmununa görə görkəmli rəssamın "Qaçqınlar" silsiləsinə daxil olan portretləri bugünkü erməni vandalizmi ilə də səsləşməklə bərabər, canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə də fərqlənir. 1914-1921-ci illərdə bədnam erməni daşnaklarının xalqımızın başına gətirdikləri faciəli, tükürpədici hadisələr gənc rəssamı sarsıdıb, onun yaradıcılığında dərin iz buraxıb. Bəhruz Kəngərli böyük yanğı ilə o dövrdə həmvətənlərinin, sadə insanların, dinc əhalinin başına gətirilən müsibətləri olduğu kimi, real boyalarla təsvir edib.

Onun əsərləri sırasında, təsirliliyi və tarixiliyi ilə mühüm əhəmiyyət kəsb edən rəsm əsərlərindən biri də 1920-ci ildə çəkilmiş "Minarəsi dağılmış məscid" əsəridir. Bu əsər, hər şeydən əvvəl, öz qəribəliyi və sadəliyi ilə seçilir. Rəsmdə minarəsi dağıdılmış, daha doğrusu, minarəsinin ortası yarılmış bir məscid təsvir olunub. Bu sadə və olduqca adi bir rəsm əsəri olsa da, görkəmli fırça ustası Bəhruz Kəngərlinin "Qaçqınlar" silsilə əsərlərindəki kimi, Vətəninin, xalqının başına gətirilən erməni vəhşiliklərinin real tarixi əksi olaraq yaradılıb. Erməni yaraqlılarının vaxtilə Naxçıvana hücumlarını xatırladan dövrü əks etdirən bu əsərdə Azərbaycan-müsəlman əhalisinin etiqad yeri olan, iman səsi eşidilən məscid minarəsinin topla dağıdıldığı təsvir olunub. Əslində, elə rəssam təkcə əsərdə görünən bir təsvir obyektini deyil, həm də onun yaratdığı təəssüratları da təqdim edib. Rəsmdə əks olunan dağılmış minarənin bu tərəfindən, yəni məsciddən baxdıqda sonsuz göylərin ilahi səltənəti olan fəza bir zülm pəncərəsindən görünən kimi təsvir olunur. Ustad rəssam hücum və dağıntıların bir təəssüratı kimi minarənin üzərindəki əbədi səadət və barışı təmsil edən ayparanın da əyilib düşdüyünü təsvir edib.

Böyük rəssamın vətənpərvərliyi sayəsindədir ki, onun ustalıqla yaratdığı əsərlərdə Naxçıvanın tarixi və görkəmli abidələri də xüsusi yer tutur. Vətənin tarixi abidələrinə həssas münasibətinin əyani ifadəsi idi ki, bu görkəmli boyakar Nuhun türbəsi kimi dəyərli tarixi abidəyə 6, Naxçıvanın tarixi simvoluna çevrilən Möminə xatın türbəsinə və İmamzadəyə 4 əsər həsr edib. Köhnə qala və Yusif Küseyir oğlu türbəsi kimi abidələri rəssam gözüylə təsvir edib. Hər rəsmdə abidənin bir qədər söküntüyə, uçquna məruz qaldığı görünür. Rəssam məhz abidənin baxımsızlıq və laqeydlikdən aram-aram necə uçulub-söküldüyünü diqqətə çatdırmaq istəyir. Bu əsərlər bu gün muxtar respublikada mənəvi dəyərlərimizə qayğını, tarixi abidələrimizin bərpası istiqamətində görülən məqsədyönlü işləri keçmişlə müqayisə şəklində aydın dərk etmək baxımından da böyük əhəmiyyət kəsb edir. Bunu da, xüsusilə əlavə etmək olar ki, Naxçıvanda dövlət qayğısı ilə tarixi abidələr təmir-bərpa edilərkən bu görkəmli sənət adamının əsərləri həmin abidələrin yeri və vəziyyəti haqqında mükəmməl məlumat verib.

Beləliklə, hansı zamandan və şəraitdən baxırsansa, bax Bəhruz Kəngərli yaradıcılığı Azərbaycan xalqına böyük xidmətlər göstərmiş milli rəssamlıq nümunəsidir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradıcılıqda püxtələşməyə başlayan, hətta sovet dövründə belə, yaradıcılığı ilə sərgilərə çıxaraq diqqətləri cəlb edən, Azərbaycan rəssamlığının yüksək mövqeyində dayanan Bəhruz Kəngərli milli müstəqilliyimizi bərpa etdiyimiz müasir dönəmdə rəsm sənətinin zirvəsində dayanaraq xalqımıza böyük şöhrət gətirməkdədir. Göstərdiyi xidmətlərə görə xalqımız bu görkəmli rəssamın xatirəsini daim əziz tutub. İstedadlı sənətkarın yaradıcılığı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də həmişə diqqət və qayğısı ilə əhatə olunub.

Naxçıvan şəhərində Bəhruz Kəngərli muzeyinin, adını daşıyan Rəssamlar Parkının yaradılması, parkda onun abidəsinin ucaldılması, 2012-ci ildə rəssamın 120 illik yubileyinin qeyd olunması görkəmli sənətkarın irsinə göstərilən diqqətin, muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir.

Azərbaycan incəsənətinin tarixində özünəməxsus xidmətləri ilə yaşayan Bəhruz Kəngərli kimi sənətkarlar bəşəri ideyalı insanlar olublar. Cəmi 30 illik ömründə əbədiyaşar əsərlərə həyat verən, incəsənət tariximizin unudulmayan nümayəndəsinə çevrilən Bəhruz Kəngərli həmişə müasirimiz olaraq bizimlə bərabər gələcəyə addımlayır.











**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi

### *2018/2019-cu tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına əyani təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu ən aşağısı 165 santimetr (qızlar üçün 160 santimetr), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2018-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2018-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyənlər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2018-ci il yanvar ayının 18-dən fevral ayının 15-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155,156,160).

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab edilirlər.

Abituriyentlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdədartınma – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qolların üzərindən bədənin döşəmədən qaldırılması – 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin *www.mia.gov.az* və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytlarında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust-13 sentyabr 2018-ci il tarixlərdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddəti kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara Hüquqşünaslıq ixtisası, polis leytenantı xüsusi və ehtiyatda olan leytenant hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin Polis Akademiyasının *www.pa.edu.az* internet saytında yerləşdirilmişdir.

### *İtmişdir*

Türkiyə vətəndaşı Murad Urak adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Şirzadov Elçin Təvəkkül oğlunun adına olan $1265^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

***Ünvan:*** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail: *serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:*** **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 54**